ədalət.2018.17 fevral.s.10.



Arzu Əsədov

# İntihar etməyəcəm

Qədər, məni təhrik etmə bu qədər,
İntihar etməyəcəm.
Dayanacam əmr gələnə qədər,
İntihar etməyəcəm.

”Ölüm elə şirindi ki,” - deyirsən,
”Elə sənin yerindi ki,” - deyirsən.
Bir haqq ölüm ver, indi ki deyirsən,
İntihar etməyəcəm.

Yolla gəlsin qursağında nə varsa,
Məndə daha ancaq səbir taparsan,
Dünyayla son bağımı da qoparsan,
İntihar etməyəcəm.

Olacaqmış onsuz da səhv bildiyim,
Dəyişəcək tez-tez tərəf bildiyim,
Boş şey imiş bəzən şərəf bildiyim,
İntihar etməyəcəm.

Bəlkə bir gün sarsılacam, sönəcəm,
Bu həyatın ta dibinə enəcəm,
Amma yenə eşiyindən dönəcəm,
İntihar etməyəcəm.

Qoymayacam belə asan çıxa can,
Mən bu canı dişlərimlə sıxacam,
Bu dərdlərdən bərkiyəcəm çıxacam,
İntihar etməyəcəm.

Dəyərim yox daha insan donunda,
İllah ki bu dərdi-sərin fonunda.
Mənim də bir sahibim var sonunda,
İntihar etməyəcəm.

Zaman kəsir, yaman kəsir içimi,
İztirablar tale, həyat biçimi.
Yaşamaq da bir intihar seçimi,
İntihar etməyəcəm.